Hedcinq maliyyə bazarlarında risklərin sığortalanmasına istiqamətlənmiş tədbirlərdir.

Bank hedcinq alətlərindən öz valyuta riskini minimallaşdırmaq üçün istifadə edir. Bu alətlərdən ən çox SPOT əməliyyatlar, SWAP əməliyyatları və Forvard müqavilələrinə üstünlük verilir.

SPOT valyuta aləti – ən sadə maliyyə alətidir. İki tərəf arasında eyni iş günü (TOD), növbəti iş günü (T+1) və ya T+2 hesablaşma tarixi ilə icra olunan mübadilə əqdləridir.

SWAP valyuta əməliyyatı – müvəqqəti mübadilə alətidir. Yəni cari tarixdə iki tərəf arasında bağlanmış mübadilə əməliyyatının gələcək tarixdə geri qaytarılmasıdır. SWAP əqdi bağlanan zaman iki əks istiqamətli əqd bağlanır. Hər iki əqddə valyuta məbləği eyni olmalıdır. Mübadilə məzənnəsi və geri alınma tarixi tərəflər arasında əvvəlcədən razılaşdırılmalıdır.

Forvard müqaviləsi – törəmə maliyyə alətidir. Birjadan kənar bağlanan müqavilədir. Forvard müqaviləsi dedikdə iki tərəf arasında müqavilədə qeyd olunan gələcək zamanda hər hansı bir valyutanın əvvəlcədən razılaşdırılmış məzənnə ilə alınıb satılması başa düşülür.